

Qərib Mehdi

# Gülab

(hekayə)

*Qulağı gözləmə otağından yalvarış dolu xahiş səsini çaldı. Düyməni basıb katibəsi Gülya xanımı çağırdı. Katibə xahişçini «xırmanda» qoyub özünü müdirin hüzuruna yetirdi. Müdir səs sahibi ilə maraqlandı:*

*– Ordan gələn zarıltı kimin səsidir?*

*Gülya xanım:*

*– Sona arvadın səsidir?*

*– Yenə nə istəyir?*

*– Əvvəlki xahişini təkrarlayır. Oğlu – Birinci Qarabağ müharibəsinin qazisi Müzənpərin ürəyi xəstədir. Həkim ona gülablı çay içməyi buyurub. Haradansa eşidib ki, siz də ürəyinizə görə gülablı çay içirsiniz. Özü də keyfiyyətlisindən. Xahiş edir ki, Cəpər Cəpəroviç həmin keyfiyyətli gülabdan bir şüşə də onun oğluna – köhnə döyüşçüyə əta eləsin. Deyir, kömək əli uzatsa, Allaha da xoş gedər. Nə cavab verim?*

Müdir bir anlığa da olsa, xadimənin xahişini götür-qoy etmədi. Mövqeyini qəti bildirdi:

– Belələrini yaxşı tanıyıram. Versəm, bir də gələcək. Sonra ayaq açanlar çox olacaq. Di gəl sən bunların qabağında dayan. Denən, Cəfər müəllim özü də o dediyi gülabdan axtarır. Əlaqə saxlasın, tapa bilsəm, bir şüşə oğlu üçün bağışlayaram. Vətənin bütövlüyü uğrunda çarpışanların qulluğunda durmaq bizim borcumuzdur.

Günlər ötür, eyni xahişin müqabilində eyni cavablar verilirdi.

***

Cəfər Cəfər oğlu Cəfərov 35 ildir ki, şəhərin gəl-götürlü idarələrindən birində müdirlik edir. Üzünə tük, əlinə diplom gələn kimi çoxsaylı işçiləri olan bir təsərrüfata rəhbərlik etməyə başladı. Biz o çoxsaylı işçilərdən beşi – müdir Cəfər Cəfərov, onun sevimli, seçimli ana-bala katibələri Nona və Gülər xanımlar, xadimə Sona arvad və onun oğlu – Birinci Qarabağ müharibəsinin qazisi Müzəffərdən söhbət açacağıq.

Keçən əsrin 80-ci illərindən ermənilərin torpaqlarımıza qarşı başlanan yeni işğalçılıq siyasəti beynəlmiləlçi Azərbaycanda milli hisslərin oyanmasına, önə çıxmasına şərait yaratdı. Qarışıq ailələrin nümayəndələri vaxt itirmədən yeni şəraitə uyğunlaşmağa başladılar. Cəfər Cəfərovun da katibəsi Nona xanım tezliklə Nanə xanım oldu. Nona xanımın ehtiras doğuran gərdənini yoldaş Cəfərov gözü sataşanda qırmızı parça görmüş harın öküz kimi kükrəyib özündən çıxırdı. Onu ancaq Nona xanım ram edib sakitləşdirməyi bacarırdı. Bu «xidmətinə» görə müdirdən sonra Nona xanım idarədə ikinci söz sahibi hesab edilirdi.



*Vətənpərvərlər Vətəni qorumaq üçün könüllü olaraq cəbhəyə yollanırdılar. Xadimə Sona arvadın yeganə oğlu Müzəffər də bu könüllülərdən biri idi. Həyat hər yerdə bir cür dəyişirdi. Bu dəyişiklik Cəfər Cəfərovun başçılıq etdiyi idarədə də baş verirdi. Artıq işçilər sovetlərin qalığı olan yarlıqla – rəhbərə «yoldaş Cəfərov» deyə müraciət etmirdilər. Keçid dövrü kimi rəhbərə müraciət forması bir-birini əvəzləməkdə olan iki sistemin əlamətlərini özündə əks etdirirdi.* Bu sahədə Nona «çətirindən» imtina etmiş Nanə xanım mühüm rol oynayırdı. Amma o, qarışıq məhsul olduğu üçün məqsədinə tam nail ola bilmirdi. Dili milli müraciətə – qrammatik qaydalara yatmırdı. O, Azərbaycan dilində danışan bütün ermənilər kimi həmişə «f» hərfini «p» hərfi kimi işlədirdi. «Cəpər Cəpəroviç, sizə limonlu çay gətirimmi?». Ehtiyac duymasa da, müdir Nanənin şirin ləhcəli pozuntusuna əsir düşür, dərhal deyirdi: «Gətir!». Zaman keçdikcə Nanə xanım tələffüzünü öz dilinə bir az da yatımlı elədi. Yəni, «c» hərfinin yerinə «ç» hərfi işlətməyə başladı, – Cəfərin əvəzinə Çəpər səsləndirildi: «Çəpər Çəpəroviç, dəstəyi götürün, sizə yuxarıdan zəng edəcəklər». Rəhbər Nanə xanımın çənəsini ələyib gülümsündü, yeni müraciətlə – Çəpər Çəpəroviçlə barışmadı: «Bundan sonra hamı mənə «Çəpər Çəpəroviç» deməyə başlayacaq. Qeyrilərinə işarə ilə anladacaqlar ki, mən idarə ilə kollektiv arasında bir çəpərə çevrilmişəm. Adımı əvvəlki kimi səsləndir: «Cəpər Cəpəroviç». Sənin dilindəki təhrif mənə ləzzət verir». Yalnız rəsmi sənədlərdə adımdan və soy adımdan ilkində olduğu kimi istifadə edilməlidir». Artıq cin şüşədən çıxmışdı. Müdirin arxasında ədalətsizliyinə etiraz edənlər astadan ona «Çəpər Çəpərov» deməklə hirslərini soyudurdular.

Orasını da deyim ki, tituləvəzi müraciətləri zamanın küləyi saman çöpü kimi qabağına qatıb sovururdu. «Yoldaş»dan sonra bir illiyinə rəhbərə «bəy» deyə müraciət etdilər. Daha sonra qeyri-rəsmi «müəllim», rəsmi isə «cənab» müraciətləri gündəmə gəldi.

Kim nə deyir desin, müdirləri qocalmağa qoymayan katibələridir. Bu işdə qarışıq məhsullar öz naz-qəmzələri, kədəri kənarda saxlamaq fəndləri, yorğanaltı «idmanları» ilə möhür sahibinin qəlbini ustalıqla fəth edirlər. Bundan sonra rəhbərlərin seyflərinin – ciblərinin açarı diz üstündə oturan gözəlçələrin əlinə keçir. Hamının babalını yumaq olmaz. İstisna hal kimi ismətli katibələrə də rast gəlinir. Belələri bizimkilərdəndir.

*Cəfər Cəfərov rəhbər olaraq kollektivdə ictimai ədalətin pozulmasına «xüsusi diqqət» yetirənlərdəndir. Bayram günlərində lazım bilinənlər pərdə arxasında qiymətli hədiyyələrə layiq görülürlər. Öndə isə başqa mənzərə baş verir. Nanəyə sadəcə bir dəstə gül, müdirin otağını silib-təmizləyən Sona arvada isə 5-10 manat pul mükafatı, üstəlik də bir təzə süpürgə bağışlanır. Zalda oturanlar rəhbərin qayğısını alqışlara «qərq» edirlər.*

Bunlar o vaxt baş verirdi ki, Cəfər Cəfərov da cavan idi, Nanə xanım da. Nanə xanım hər dəfə xüsusi əda-işvə ilə Cəfər müəllimə minnətdarlıq edirdi:

– Cəpər Cəpəroviç, sizin sonsuz səxavətiniz sayəsində bütün dünyanı gəzdim, villam oldu, barmaqlarımı, boynumu qiymətli daş-qaşlarla bəzədiniz. Ən bahalı maşının sükanı arxasında oturdum (bəli, dili sehirli xanımlar əli möhürlülərin peysərində oturanda belə olur). Sizə can qurban eləmək azdır, az!

Sonra növbəti əməliyyat başlayırdı. Nanə xanımın yumulu əli Cəfə müəllimin cibinə daxil olurdu. Bunun nə demək olduğu aydın idi. Buna baxmayaraq müdir bildiyini bilməzliyə vururdu:

– Cibimlən nə götürürsən?

Cəfər Cəfər oğlu Cəfərov 35 ildir ki, şəhərin gəl-götürlü idarələrindən birində müdirlik edir. Üzünə tük, əlinə diplom gələn kimi çoxsaylı işçiləri olan bir təsərrüfata rəhbərlik etməyə başladı. Biz o çoxsaylı işçilərdən beşi – müdir Cəfər Cəfərov, onun sevimli, seçimli ana-bala katibələri Nona və Gülər xanımlar, xadimə Sona arvad və onun oğlu – Birinci Qarabağ müharibəsinin qazisi Müzəffərdən söhbət açacağıq...

Nanə xanım şikayət edici işvə ilə:

– Götürdüyümün qalığını qaytarıram.

– O nədir elə?

– Çərəz! Qoz-pındıq ləpəsidir. Məni pağır bala bilməyin. Bu əvəzsiz nemət cavanlığını qoruyan sizin kimi vəzifəli kişilər üçündür. Ləpə erkəkliyi həmişə ayaqda saxlayır. Boş olanda ağzınıza atarsınız.

Bu hərəkətdən xoşhal olan müdir onun cibinə ləpə ötürən pəmbə əlindən öpüb gülümsünürdü:

– Ay səni şeytan!..

Səyahətlər zamanı məclislər meysiz-məzəsiz olmazdı. Cəfər müəllim içkiyə həddi qorumaqla meyl edənlərdən idi. O, spirtli içkilər arasında tündlük dərəcəsi az olan şəraba üstünlük verirdi. Çappa stəkanla dalbadal araq gillədən Qurbanəli bəyin (Mirzə Cəlilin obrazı) nəvəsi olsa da, həmişə araqdan yan dururdu. Nanə xanım da ona şərab içməyi məsləhət görürdü. Təcrübədən bilirdi ki, araqlayan kişilər qadınların yatağında artıq yükə çevrilirlər. Bəli, o vaxtlar cənab Cəfər Cəfərovun vücudundan elə bir şikayəti yox idi. Ona görə də gülab əvəzinə, şərab içirdi. Hələ üzüm suyundan gül suyuna xeyli yol vardı...

Səyahətlər zamanı məclislər meysiz-məzəsiz olmazdı. Cəfər müəllim içkiyə həddi qorumaqla meyl edənlərdən idi. O, spirtli içkilər arasında tündlük dərəcəsi az olan şəraba üstünlük verirdi. Çappa stəkanla dalbadal araq gillədən Qurbanəli bəyin (Mirzə Cəlilin obrazı) nəvəsi olsa da, həmişə araqdan yan dururdu. Nanə xanım da ona şərab içməyi məsləhət görürdü. Təcrübədən bilirdi ki, araqlayan kişilər qadınların yatağında artıq yükə çevrilirlər. Bəli, o vaxtlar cənab Cəfər Cəfərovun vücudundan elə bir şikayəti yox idi. Ona görə də gülab əvəzinə, şərab içirdi. Hələ üzüm suyundan gül suyuna xeyli yol vardı...

*Müdirlər qocaldıqca «məhəbbət meşəsində» cavan ələkləri ovlamağa meyilli olurlar. Anası ölmüş Nanə xanım təcrübəsindən yaxşı bilirdi ki, igidin atı, müdirin katibəsi həmişə oynaq, çaparaq olmalıdır. Zaman ötdükcə hiss edirdi ki, daha əvvəlki təravətdə deyil. Müdirin cib-seyfini əldə saxlamağın xatirinə könüllü olaraq məşuqəlik missiyasını sütül, məhəbbət meydanında təzəcə rəqsə başlayan qızı Gülya xanıma güzəştə getdi. Özü isə yana çəkilib məsləhətçi-məşqçi rolu ilə kifayətləndi:*

(ardı gələn sayımızda)